Azərbaycan Respublikası
Ekologiya və Təbii Sərvətlər
Nazirliyi

AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

# E L A N

23-24 may 2024-cü il tarixlərində Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə "Azərbaycanda ətraf mühitin sağlamlaşdırılmasında Ümummilli Lider Heydər Əliyevin rolu" mövzusunda elmi-praktiki konfrans keçiriləcəkdir.

**KONFRANSIN MÖVZULARI**

1. Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə təbiətə qayğıkeş münasibəti
2. 1969-1982-ci illərdə ölkədə ilk dəfə ümumxalq miqyasda yaşıllaşdırma tədbirlərinin həyata keçirilməsi
3. Azərbaycanın zəngin flora və fauna müxtəlifliyinin qorunub saxlanılması ilə əlaqədar Ümummilli Lider Heydər Əliyevin tələbləri və tövsiyələri
4. Müstəqillik dövründə Azərbaycan Respublikasında Ulu Öndər Heydər Əliyevin təbiətə yeni baxışı, ətraf mühit sahəsində qəbul edilmiş mühüm qərar və tövsiyələr
5. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə ölkənin ekoloji siyasətinin formalaşması və inkişaf etdirilməsi məsələləri
6. Ulu Öndər Heydər Əliyev və xüsusi mühafizə olunan təbiət əraziləri: yaradılması, genişləndirilməsi və idarə olunması
7. Azərbaycan mədəniyyəti, folkloru, ədəbiyyatı və fəlsəfi dünyagörüşündə ekoloji ictimai şüur məsələləri və təbiətə münasibət
8. Azərbaycanın ətraf mühit problemləri, bioloji müxtəlifliyin qorunması, ekoloji monitorinq məsələləri
9. Ağıllı ətraf mühit, yaşıl artım və yaşıl texnologiyalar məsələləri
10. Müasir dövrdə ekologiya və ətraf mühitin qorunmasında rəqəmsal texnologiyalar və süni intellekt faktoru
11. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Yaşıl dünya naminə həmrəylik" və yaşıl enerji siyasəti
12. Azərbaycan Respublikasının Birinci Vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən yaşıllaşdırma və reintroduksiya layihələri
13. Azərbaycanın təbii landşaftları, torpaq və su ehtiyatları
14. İşğaldan azad olunmuş ərazilərin ekoloji problemləri
15. İctimai ekologiya və sağlamlıq problemləri

**KONFRANSIN KEÇİRİLMƏ TARİXİ**

23-24 may 2024-cü il

**KONFRANSIN DİLİ**

Azərbaycan və ingilis

Konfrans materialları nəşr olunacaq, AR Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası və AR Elm və Təhsil Nazirliyinin rəsmi saytlarında yerləşdiriləcək.

**ƏSAS İSTİQAMƏTLƏR**

Təqdim olunan tezislər konfrans mövzuları ilə bilavasitə əlaqələndirilməlidir.

**MƏRUZƏ TEZİSLƏRİNİN TƏRTİB OLUNMA QAYDALARI**

- Mətn Microsoft Word redaktorunda Times New Roman şrifti ilə (hərflərin ölçüsü – 12, interval – 1,15) yığılır, A4 formatında təqdim edilir (səhifənin kənar boşluqları hər tərəfdən 2 sm qoyulur);
- Məruzənin mətni 3 səhifədən artıq olmamalıdır;
- Tezisdən yuxarıda, sağda onun hansı bölməyə təqdim edilməsi mütləq qeyd olunmalıdır;
- Mətnin əvvəlində ortadan məruzənin adı (baş hərflərlə, bold), onun altında tam şəkildə müəllifin adı və soyadı, onun altında təmsil etdiyi təşkilatın tam adı, korrespondent müəllifin e-mail ünvanı yazılır;
- Mətndə abzaslar 1 sm qoyulur.

**NÜMUNƏ**

*9. Ağıllı ətraf mühit, yaşıl artım və*
*yaşıl texnologiyalar məsələləri*

**TEZİSİN ADI**

***Əhməd Əhmədov[1*], Məmməd Məmmədov[2], ...***

*[1]Təşkilatın tam adı, [2]Digər təşkilatın tam adı, ...*
*[*]e-mail ünvanı*

Tezisin mətni

*Müəlliflərin elmi dərəcələri, elektron ünvanları və telefon nömrələri tezisin sonunda göstərilməlidir. Təhsilini davam etdirən müəllif təhsil pilləsinə uyğun olaraq özü haqqında məlumatda bakalavr, magistrant və ya doktorant olduğunu qeyd etməlidir. Hazırda heç bir yerdə təhsil almayan və elmi dərəcəsi olmayan müəllif bu məlumatı qeyd etmədən yalnız yaşadığı şəhər və ölkəni göstərməlidir.*

**MƏRUZƏ TEZİSLƏRİNİN GÖNDƏRİLƏCƏYİ ÜNVAN VƏ QƏBUL OLUNMASI ÜÇÜN SON TARİX**

Tezislər konfrans.ekol.2024@gmail.com elektron ünvanına göndərilməlidir.

Son tarix: 6 may 2024-cü il

**KONFRANSIN KEÇİRİLƏCƏYİ ÜNVAN**

Azərbaycan Milli Elmlər Akademiyasının Əsas binası

Bakı şəhəri, Hüseyn Cavid pr., 115

Əlaqə nömrəsi: (+994 12) 492 32 27